# Ulu öndərə dərin ehtiram

## Ürəklərdə əbədi yaşayan ölməz şəxsiyyət

***Ümummilli lider Heydər Əliyevin vəfatının 13-cü ildönümü ilə əlaqədar Heydər Əliyev Mərkəzi əməkdaşlarının məktəblərdə keçirdikləri tədbirlər davam edir. 8-9 dekabr tarixlərdə mərkəzin əməkdaşları Qəbələ şəhər 2 və 3 nömrəli tam orta məktəblərdə anım günü ilə bağlı mühazirə oxumuş, broşürlər paylamışlar.***

"Ürəklərdə əbədi yaşayan dahi şəxsiyyət" mövzusunda mühazirə ilə çıxış edən Heydər Əliyev Mərkəzinin böyük elmi işçisi Aygün Məmmədova ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqının tarix boyu yetişdirdiyi nadir və bənzərəsiz şəxsiyyətlərdən olduğunu və milyonlarla insanın qəlbində əbədi yaşadığını qeyd etdi. Həyatının mənasını xalqa və dövlətə xidmətdə görən ulu öndərimizin bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərdiyini qeyd edən natiq onun millət fədaisi kimi daim böyük ehtiramla, rəğbətlə xatırlanacağını bildirib.

Xalqı və milləti qarşısında misilsiz xidmətlərinə və müstəsna tarixi roluna görə ulu öndərin dünya miqyaslı siyasi nəhənglərlə müqayisə oluna biləcəyini söyləyən Aygün Məmmədova onun Azərbaycan xalqının həqiqi lideri və xilaskarı kimi şərəfli missiyanı böyük əzim və şərəflə yerinə yetirdiyini qeyd edib. Bütün ömrünü Azərbaycan tərəqqisinə sərf edən bu müdrik insanın: "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" kəlamını diqqətə çatdırıb.

Anım günlərində şagirdlər ulu öndərə ithaf olunan şeirlərdən nümunələr söyləmişlər.

**Heydər Əliyev Mərkəzi.**

## Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş ifaçılıq müsabiqəsi

Gənclər və idman idarəsinin təşkilatçılığı və Qəbələ İncəsənət Məktəbinin iştirakı ilə 10 dekabr 2016-cı il tarixdə uşaq və yeniyetmələr arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş İfaçılıq müsabiqəsi keçirilmişdir.

Müsabiqənin keçirilməsində əsas məqsəd ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanımızın inkişafı istiqamətində gördüyü işlər, hər bir sahədə olduğu kimi gənclərlə iş sahəsində apardığı islahatları ictimaiyyətə çatdırmaq, həmçinin yaradıcı və istedadlı yeniyetmələri üzə çıxarmaq və onların ifaçılıq qabiliyyətini inkişaf etdirməkdən ibarətdir.

Tədbirin açılış mərasimində ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov və incəsənət məktəbinin direktoru Əhməd Qəndiyev çıxış edərək Heydər Əliyevin siyasi fəaliyyəti barədə ətraflı danışmış, müsabiqə iştirakçılarına uğurlar arzulamışlar.

Müsabiqənin əsasnaməsinə uyğun olaraq yarışda



şagirdlər fortepiano, qarmon, tar, saz, kamança və xanəndəlik ixtisasları üzrə öz məharətlərini göstərmişlər. Münsiflər heyəti tərəfindən iştirakçıların ifaları qiymətləndirilmiş və hər ixtisas üzrə I, II və III yerlərin qaliblər müəyyən edilmişdir. Verilmiş xalların nəticəsinə görə fortepiano ixtisası üzrə I yerə Çingiz Nəcəfzadə, qarmon üzrə Elvin Mahmudov, tar üzrə Fəqan Eyvazov, saz üzrə Nuray Zamanlı, kamança üzrə Vaqif Seyidov və xanəndəlik üzrə Rəsul Mahmudov layiq görülmüşlər.

Müsabiqənin yekununda qaliblərə gənclər və idman idarəsinin diplomları və xatirə hədiyyələri təqdim olunmuşdur.

✍ **Məhəmmədəli SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**

## Dünya şöhrətli siyasi lider

***Dekabr ayının 12-də Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları dünya şöhrətli siyasi xadim Heydər Əliyevin əziz xatirəsini qeyd etmişlər. Ulu öndər əbədiyyətə qovuşan gün onun keçdiyi həyat yoluna bir daha nəzər salınmış, ideya irsi tədqiq olunmuşdur.***

Dahi şəxsiyyət təkcə Azərbaycan üçün bu dünyaya gəlməmişdi, o Şərqlə Qərb arasında doğan bir günəş idi. Sonralar onun ziyası planetin bütün zirvələrində parladı. Onun ideya irsi, əməlləri indi dünyanın bütün siyasi liderləri tərəfindən təqdir olunur.

Yaxşı yadımdadır. Hələ keçmiş sovetlər ittifaqı dövründə bəzi rus şovinistləri tərəfindən parlamaqda olan günəşin qarşısını kəsməyə çalışanlar da tapılırdı. Lakin o qarşısı alınmaz bir siyasi qüvvə idi. Həyat həmişə həqiqətlərin və ədalətin tərəfində olub. Artıq bu ədalət zəfər çalmış, Heydər Əliyev bütün dünyada öz siyasi qiymətini almışdır. Bu gün Heydər Əlliyev fenomeni dünyanın hər yerində yaxşı tanınır, milliyyətindən, irqindən, əqidəsindən asılı olmayaraq qabaqcıl dünyagörüşlü liderlər onun ruhuna hörmət bəsləyirlər. Bu hörmət və ehtiram bununla bağlıdır ki, böyük şəxsiyyətin ideyaları, siyasi kursu ancaq həyati reallığa, həqiqətlərə, ədalətə, saf niyyətlərə söykənmişdir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun belə bir siyasi lideri olmuşdur. Xalqımız öz siyasi liderini həmişə ehtiramla yad edir. Biz də deyirik, qoy onun ideyaları daim yaşasın, bu əbədiyaşar insana Allah rəhmət eləsin, məzarı nurla dolsun.

✍ **Nazim MUSTAFAYEV,**
**rayon ağsaqqallar şurasının sədri.**

## Unudulmaz lider

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları çox olmuşdur. Bunlar zaman-zaman gördükləri böyük işləri və əməlləri ilə yadda qalmış və unudulmamışlar. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lider adını qazanmış, görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi yeri vardır.

Heydər Əliyev fenomeni, onun şəxsiyyətinin ucalığı, fövqəladə idarəçilik qabiliyyəti yüksək intellekti dünyanın görkəmli siyasətçiləri tərəfindən yüksək qiymətləndirilib. Ulu öndərimizin bu nüfuzu onun xalq və ölkə qarşısındakı əvəzsiz xidmətləri, özünün nəsillərə nümunə ola biləcək həyat fəaliyyəti. misli görünməmiş idarəçillik qabiliyyəti ilə bağlıdır.

XX əsr və XXI əsrin başlanğıcının görkəmli siyasətçilərindən və dövlət xadimlərindən biri olan Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına istiqamət verəcəkdir. Hər bir ölkə vətəndaşı bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasət ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

✍ **Maqsud QASIMOV,**
**Zarağan kənd 1 saylı tam orta məktəbi.**

## Bu günkü ictimai sabitliyin əsasını ulu öndərimiz yaratmışdır

***Bu gün dövlətimiz irimiqyaslı layihələr həyata keçirir, əhalinin əməkhaqqı, pensiyalar və digər müavinətləri hər il artırılır. Bunu statistika məlumatları da təsdiq edir.***

***Ölkənin sürətli inkişafı göz qabağındadır. Beynəlxalq təşkilatlar da etiraf edirlər ki, Azərbaycan sənayenin, kənd təsərrüfatı məhsullarının inkişaf sürətinə görə lider dövlətdir. Bunlar isə əhalinin güzəranının yaxşılaşmasına stimul yaradır.***

Bu inkişafın təməli xalqımızın ümummilli lideri Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra qoyulmuşdur. Heydər Əliyevin uzaqgörənliyinin, idarəetmə bacarığının, iqtisadiyyatı yüksəltmək üçün gərgin axtarışlarının və güclü iradəsinin nəticəsi bu günkü inkişafa, tərəqqiyə möhkəm zəmin yaratmışdır.

Bakı—Tbilisi—Ceyhan ixrac neft kəmərinin çəkilməsi bu gün öz səmərəsini verir. Amma bu nəhəng layihənin reallaşdırılması heç də asan başa gəlməmişdir. Əsrin müqaviləsi adlandırılan neft kontraktının imzalanması Azərbaycan üçün böyük qələbə idi. Lakin bu müqavilənin əleyhdarları da az deyildi. Unudulmaz rəhbər Heydər Əliyev özü bu məsələyə münasibətini bildirərək demişdir: «Azərbaycanın neft strategiyasının əleyhinə olan qüvvələr az deyil, daxildə də, xaricdə də var, daxildə də, onlar ölkəmizin güclənməsini istəmirlər».

Bütün təzyiqlərə baxmayaraq Heydər Əliyev ixrac neft kəmərinin çəkilişinə nail oldu. Heç kimə sirr deil ki, Xəzər dənizindən və ətrafdakı ərazidən bu qədər neft və qazın çıxarılması üçün Azərbaycan öz gücünə ümid bəsləsəydi hələ uzun illər gözləməli olardı. Xəzər hövzəsindən neft hasilatının artırılması, neftin dünya bazarına çıxarılması böyük çətinliklərdən sonpra mümkün olmuşdur. Çünki müasir texnika və texnologiya yox idi, onları xarici ölkələrdən almağa vəsait, işlətməyə ixtisaslı kadrlar çatışmırdı.

**(Ardı 5-ci səhifədə).**